**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Dövlət investisiya layihələrinin və proqramların monitorinqi şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Dövlət investisiya layihələrinin və proqramların monitorinqi şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində dövlət investisiya siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak edir, dövlət investisiya layihələrinin monitorinqinin təşkilini, habelə sözügedən layihələr ilə bağlı informasiya toplanması, müşahidə, vizual baxış, təhlil və nəticələrə dair hesabatın hazırlanmasını, iqtisadi inkişafa dair dövlət proqramlarının monitorinqi və icrasına nəzarət sahələrində işlərin təşkilini və təkmilləşdirilməsini təmin edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – Nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, bələdiyyələr, qeyri-hökumət təşkilatları və büdcədənkənar dövlət fondları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. dövlət investisiya layihələri üzrə icra və investisiyadan sonrakı mərhələlərdə müvafiq olaraq monitorinq və icrası başa çatmış layihələr üzrə nəzərdə tutulan nəticə və məqsədlərə

nail olunmasının qiymətləndirilməsinin (bundan sonra – qiymətləndirmə) həyata keçirilməsi üçün dövlət investisiya siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

2.1.2. dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərclər) çərçivəsində maliyyələşdiriləcək layihələrin siyahısına daxil edilməsi üçün sifarişçi təşkilatlar tərəfindən layihələrin qiymətləndirilməsi üçün təqdim olunan layihə sənədlərinin icra planları ilə bağlı hissələrinə dair aidiyyəti struktur vahidi ilə birgə münasibət bildirir;

2.1.3. dövlət investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsi üzrə işlərin təşkilini və tənzimlənməsini həyata keçirir;

2.1.4. dövlət investisiya layihələrinin icrasının təmin edilməsi məqsədi ilə aidiyyəti qurumlar arasında fəaliyyətin koordinasiyasını təmin edir;

2.1.5. dövlət investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə yaradılan monitorinq informasiya sistemi vasitəsi ilə səmərəli və şəffaf monitorinqin təşkilini həyata keçirir;

2.1.6. sosial-iqtisadi inkişaf dövlət proqramlarının icrasının monitorinqini həyata keçirir və icrasına nəzarəti təmin edir;

2.1.7. müvafiq sahədə normativ-metodiki bazanın formalaşdırılmasında və təkmilləşdirilməsində iştirak edir;

2.1.8. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. dövlət investisiya layihələri üzrə icra və investisiya qoyuluşundan sonrakı mərhələlərdə monitorinqin və qiymətləndirmənin həyata keçirilməsi sahəsində dövlət investisiya siyasətinin formalaşmasında iştirak etmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

3.1.2. dövlət əsaslı vəsait qoyuluşu çərçivəsində maliyyələşdiriləcək layihələrin siyahısına daxil edilməsi üçün sifarişçi təşkilatlar tərəfindən layihələrin qiymətləndirilməsi üçün təqdim olunan layihə sənədlərinin icra planları ilə bağlı hissələrinə dair aidiyyəti struktur vahidi ilə birgə münasibət bildirmək;

3.1.3. Azərbaycan Respublikası adından və ya dövlət zəmanəti ilə cəlb edilən kreditlər üzrə xarici investorlarla aparılan danışıqlarda iştirak etmək, layihələrin qiymətləndirilməsi üçün təqdim olunan layihə sənədlərinin icra planları ilə bağlı hissələrinə dair aidiyyəti struktur vahidi ilə birgə münasibət bildirmək;

3.1.4. sifarişçi təşkilatlar tərəfindən təqdim edilən hesabatlar və yerində baxış əsasında dövlət investisiya layihələrinin icrasının monitorinqini həyata keçirmək, monitorinqin nəticələrini

ümumiləşdirmək, həmin məlumatlar əsasında icmal hesabatın hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

3.1.5. dövlət investisiya layihələrinin icrasının monitorinqinin nəticələrinə əsasən icra planlarından kənarlaşmalara və problemlərə dair qeydlər aparmaq, zəruri hallarda layihələrin xərc və icra qrafiklərinə dəyişiklərin edilməsi, eləcə də layihələrinin icrasında və ya ayrılmış vəsaitin istifadəsində gecikmələr müəyyən edildiyi təqdirdə müvafiq tədbirlər görmək, layihələr üzrə qalıq vəsaitlərin digər layihələrin maliyyələşdirilməsinə yönləndirilməsi və ya icrasının dayandırılması ilə bağlı təkliflər vermək;

3.1.6.dövlət investisiya layihələrinin icrasına nəzarətin həyata keçirilməsi məqsədilə sifarişçi təşkilatların özləri tərəfindən monitorinqlərin aparılması ilə əlaqədar tədbirlər görmək;

3.1.7. monitorinqin nəticələrinə görə dövlət investisiya layihələrinin icrasında və ya ayrılmış vəsaitin istifadəsində gecikmələr müəyyən edildiyi təqdirdə, həmin vəsaitin digər layihələrin icrasına yönəldilməsi məqsədilə aidiyyəti üzrə təkliflər vermək;

3.1.8. dövlət investisiya layihələrinin icrası çərçivəsində tikintisi başa çatmış, lakin balansa alınmamış, istismar olunmayan və ya təyinatı üzrə istifadə olunmayan obyektlərə dair təkliflər vermək;

3.1.9. icrası tamamlanmış prioritet orta və iri investisiya layihələri üzrə (adətən strateji və yüksək təsirə malik riskli layihələr üçün) cəlb edilmiş müstəqil kənar qiymətləndirici tərəfindən hazırlanmış yekun qiymətləndirmələrə dair Nazirliyin aidiyyəti struktur vahidləri ilə birgə münasibət bildirmək, il ərzində təqdim edilmiş yekun qiymətləndirmə sənədləri əsasında icmal hesabatın Nazirliyin aidiyyəti struktur vahidləri ilə birgə hazırlanmasında iştirak etmək;

3.1.10. dövlət satınalmaları üzrə Nazirlikdə yaradılan tender komissiyasının fəaliyyətində iştirak etmək;

3.1.11. dövlət investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə dövlət investisiyalarının idarə edilməsi informasiya sisteminin qurulması və idarə olunmasında iştirak etmək;

3.1.12. səlahiyyətləri daxilində dövlət proqramlarının monitorinqini aparmaq və icra vəziyyətini təhlil etmək,  icrasına nəzarəti həyata keçirmək, icrası ilə bağlı fəaliyyət istiqamətləri üzrə təkliflər hazırlamaq və aidiyyəti tədbirlər görmək;

3.1.13. dövlət proqramlarında Nazirliyə həvalə edilmiş tədbirlərin icra vəziyyətini təhlil etmək, icrasına nəzarəti həyata keçirmək və icra vəziyyətinə dair hesabatlar hazırlamaq;

3.1.14. Nazirliyin əlaqələndiricisi olduğu dövlət proqramlarının monitorinqi ilə əlaqədar müvafiq məlumat bazasının formalaşdırılmasını və mütəmadi olaraq yenilənməsini təmin etmək;

3.1.15. Nazirliyin əlaqələndiricisi olduğu və digər sahəvi dövlət proqramlarının icra vəziyyəti ilə əlaqədar hesabatlar hazırlamaq, icrasının nəticələrini təhlil etmək, vaxtında, tam və lazımınca icra olunmamış tədbirlərin icrasının sürətləndirilməsi ilə bağlı zəruri tədbirlər görmək;

3.1.16. dövlət proqramlarında Nazirliyə tapşırılmış tədbirlərin icra vəziyyəti ilə bağlı mütəmadi olaraq məlumatlar hazırlamaq və rəhbərliyə təqdim etmək, zərurət yarandıqda onların icrasını təmin etmək məqsədilə müvafiq təkliflər hazırlamaq;

3.1.17. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi və şöbənin potensialının artırılması istiqamətində beynəlxalq donor təşkilatları ilə əməkdaşlıq etmək;

3.1.18. dövlət investisiya layihələrinin və proqramların monitorinqi sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

3.1.19. dövlət investisiya layihələrinin və proqramlarının icrası barədə məlumatlar əldə etmək, onları təhlil etmək, icmallaşdırmaq və rəhbərliyə təqdim etmək;

3.1.20. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.21. fəaliyyət istiqamətləri üzrə Nazirliyin inkişaf konsepsiyasının (strateji planının), fəaliyyəti ilə bağlı digər strateji proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.22. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.23. fəaliyyət istiqamətlərinə uyğun olaraq şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair təkliflər vermək;

3.1.24. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı aidiyyəti dövlət orqanlarına təqdim olunması üçün təkliflər hazırlamaq, dövlət investisiya layihələrinin icrasının monitorinqinini həyata keçirmək və qiymətləndirilməsində iştirak etmək;

4.1.2. fəaliyyət istiqamətləri üzrə Nazirliyin strukturları tərəfindən hazırlanmış sənəd layihələrinin, qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin, dövlət proqramlarının və konsepsiyalarının layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

4.1.3. fəaliyyət istiqamətlərinə uyğun təhlillər, ümumiləşdirmələr və monitorinqlər aparmaq, analitik materiallar hazırlamaq, dövlət investisiyaları sahəsindəki qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.4. fəaliyyət istiqamətləri üzrə digər dövlət orqanlarından, bələdiyyələrdən, müəssisə və təşkilatlardan daxil olan məktub və müraciətlərə, eləcə də həmin qurumlar tərəfindən hazırlanmış normativ-hüquqi və normativ xarakterli sənədlərə dair cavab məktublarının, rəy və təkliflərin layihələrini hazırlamaq;

4.1.5. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) əldə olunması barədə sorğu vermək və məlumatları (sənədləri) almaq;

4.1.6. bu Əsasnamədə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri), göstəriciləri almaq;

4.1.7. fəaliyyət istiqamətlərinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında Nazirliyi təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.8. Nazirlikdə və ya digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, kredit danışıqlarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.9. zərurət yarandıqda fəaliyyət istiqamətlərinə uyğun dövlət satınalmaları üzrə Nazirlikdə yaradılan tender komissiyasının fəaliyyətində iştirak etmək;

4.1.11. müvafiq sahədə elektron informasiya sisteminin qurulması və idarə olunmasına səlahiyyətləri daxilində nəzarət etmək və aidiyyəti öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

4.1.12. dövlət investisiya layihələrinin monitorinqi prosesində zəruri hallarda ekspertlərin və ixtisaslı mütəxəssislərin, eləcə də Nazirliyin digər aidiyyəti strukturlarının əməkdaşlarının cəlb olunması ilə bağlı rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

4.1.14. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı Nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə Nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna İnvestisiya layihələrinin monitorinqinin təşkili sektoru, İnvestisiya layihələrinin təhlili və icmalı sektoru və Dövlət proqramlarının monitorinqi və icrasına nəzarət sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. Şöbə müdirinin müavini (müavinləri) şöbə müdiri tərəfindən ona (onlara) həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya Nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları Nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələlər barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərdə müəyyən olunan tapşırıqların şöbə tərəfindən vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. İnvestisiya layihələrinin monitorinqinin təşkili sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. dövlət investisiya layihələri üzrə icra və investisiya qoyuluşundan sonrakı mərhələlərdə monitorinq və qiymətləndirmənin həyata keçirilməsi üçün dövlət investisiya siyasətinin formalaşmasında iştirak etmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

6.1.2. layihələrin qiymətləndirilməsi üçün təqdim olunan layihə sənədlərinin icra planları ilə bağlı hissələrinə dair aidiyyəti struktur vahidi ilə birgə münasibət bildirmək;

6.1.3. dövlət investisiya layihələrinin monitorinqinin təşkilində və həyata keçirilməsində iştirak etmək;

6.1.4. dövlət investisiya layihələrinin icrasının monitorinqinin nəticələrinə əsasən icra planlarından kənarlaşmalara və nöqsanlara dair qeydlər aparmaq, zəruri hallarda layihələrin xərc və icra qrafiklərinə dəyişiklərin edilməsi, eləcə də layihələrinin icrasında və ya ayrılmış vəsaitin istifadəsində gecikmələr müəyyən edildiyi təqdirdə müvafiq tədbirlər görmək, layihələr üzrə qalıq vəsaitlərin digər layihələrin maliyyələşdirilməsinə yönləndirilməsi və ya icrasının dayandırılması ilə bağlı təkliflər vermək;

6.1.5. dövlət investisiya layihələrinin icra vəziyyətinə dair hesabatların hazırlanmasında iştirak etmək;

6.1.6. dövlət investisiya layihələrinin icrası çərçivəsində tikintisi başa çatmış, lakin balansa alınmamış, istismar olunmayan və ya təyinatı üzrə istifadə olunmayan obyektlərə dair təkliflər vermək;

6.1.7. zərurət yarandıqda dövlət satınalmaları üzrə Nazirlikdə yaradılan tender komissiyasının fəaliyyətində iştirak etmək;

6.1.8. dövlət investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə dövlət investisiyalarının idarə edilməsi informasiya sisteminin qurulması və idarə olunmasında iştirak etmək;

6.1.9. dövlət investisiya layihələrində nəzərdə tutulmuş tədbirlərin icrasının, həmçinin sifarişçi təşkilatların bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsinə dair təkliflər vermək, investisiya layihələrinin icrasına nəzarət edilməsi məqsədilə sifarişçi təşkilatların özləri tərəfindən monitorinqlərin keçirilməsi ilə əlaqədar tədbirlər görmək;

6.1.10. dövlət investisiya layihələrinin icrası və monitorinqi sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

6.1.11. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

6.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. İnvestisiya layihələrinin təhlili və icmalı sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. dövlət investisiya layihələri üzrə icra və investisiya qoyuluşundan sonrakı mərhələlərdə monitorinq və qiymətləndirmənin həyata keçirilməsi üçün dövlət investisiya siyasətinin formalaşmasında iştirak etmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

6.2.2. dövlət əsaslı vəsait qoyuluşu çərçivəsində maliyyələşdiriləcək layihələrin siyahısına daxil edilməsi üçün sifarişçi təşkilatlar tərəfindən layihələrin qiymətləndirilməsi üçün təqdim olunan layihə sənədlərinin icra planları ilə bağlı hissələrinə dair Nazirliyin aidiyyəti struktur vahidi ilə birgə münasibət bildirmək;

6.2.3. sifarişçi təşkilatlar tərəfindən təqdim edilən dövlət investisiya layihələrinin icrasına dair dövri və yekun hesabatlar əsasında layihələrin icrasının monitorinqini həyata keçirmək, monitorinqin nəticələrini ümumiləşdirmək, həmin məlumatlar əsasında icmal hesabatın hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

6.2.4. dövlət investisiya layihələrinin icrasının monitorinqinin nəticələrinə əsasən icra planlarından kənarlaşmalara və nöqsanlara dair qeydlər aparmaq, zəruri hallarda layihələrin xərc və icra qrafiklərinə dəyişiklərin edilməsi, eləcə də layihələrinin icrasında və ya ayrılmış vəsaitin istifadəsində gecikmələr müəyyən edildiyi təqdirdə müvafiq tədbirlər görmək, layihələr üzrə qalıq vəsaitlərin digər layihələrin maliyyələşdirilməsinə yönləndirilməsi və ya icrasının dayandırılması ilə bağlı təkliflər vermək;

6.2.5. dövlət investisiya layihələrinin monitorinqində iştirak etmək, icra vəziyyətinə dair arayışların hazırlanmasını və aidiyyəti üzrə təqdim olunmasını təmin etmək;

6.2.6. icrası tamamlanmış prioritet orta və iri investisiya layihələri üzrə (adətən strateji və yüksək təsirə malik riskli layihələr üçün) cəlb edilmiş müstəqil kənar qiymətləndirici tərəfindən hazırlanmış yekun qiymətləndirmələrə dair Nazirliyin aidiyyəti struktur vahidləri ilə birgə münasibət bildirmək, il ərzində təqdim edilmiş yekun qiymətləndirmə sənədləri əsasında icmal hesabatın Nazirliyin aidiyyəti struktur vahidləri ilə birgə hazırlanmasında iştirak etmək;

6.2.7. dövlət satınalmaları üzrə Nazirlikdə yaradılan tender komissiyasının fəaliyyətində iştirak etmək;

6.2.8. dövlət investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə dövlət investisiyalarının idarə edilməsi informasiya sisteminin qurulmasında və idarə olunmasında iştirak etmək;

6.2.9. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi və şöbənin potensialının artırılması istiqamətində beynəlxalq donor təşkilatları ilə əməkdaşlıq etmək;

6.2.10. dövlət investisiya layihələrində nəzərdə tutulmuş tədbirlərin icrasının, həmçinin sifarişçi təşkilatların bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsinə dair təkliflər vermək;

6.2.11. dövlət investisiya layihələrinin icrası və monitorinqi sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

6.2.12. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərin və sorğuların qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

6.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Dövlət proqramlarının monitorinqi və icrasına nəzarət sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. Nazirliyin əlaqələndiricisi olduğu və digər sahəvi dövlət proqramlarının icrasına nəzarəti həyata keçirmək, proqramlarda nəzərdə tutulmuş tədbirlərin icrası üzrə təkliflər hazırlamaq, bununla bağlı aidiyyəti tədbirlər görmək;

6.3.2. dövlət proqramlarında Nazirliyə həvalə edilmiş tədbirlərin icrasını səlahiyyətləri daxilində əlaqələndirmək və icra vəziyyətini təhlil etmək;

6.3.3. Nazirliyin əlaqələndiricisi olduğu dövlət proqramlarının icra vəziyyəti ilə bağlı qurumlar tərəfindən təqdim olunmuş hesabatlar əsasında monitorinqlər aparmaq (müvafiq göstərişlər əsasında), onların nəticələrini ümumiləşdirmək və yekun hesabat hazırlamaq;

6.3.4. aparılmış monitorinqlər nəticəsində tədbirlərin icrası ilə bağlı müəyyən olunmuş problemlərin aradan qaldırılması sahəsində müvafiq tədbirlərin görülməsi üçün təkliflər hazırlamaq;

6.3.5. dövlət orqanları tərəfindən hazırlanmış dövlət proqramlarının layihələrinə dair fəaliyyət istiqamətləri üzrə rəylər hazırlamaq;

6.3.6. fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, Nazirliyin strukturları və digər dövlət orqanları tərəfindən hazırlanmış aidiyyəti layihələrə rəy vermək;

6.3.7. dövlət proqramlarının monitorinqi ilə əlaqədar müvafiq məlumat bazasının formalaşdırılmasını və mütəmadi olaraq yenilənməsini təmin etmək;

6.3.8. dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə aidiyyəti icraçı qurumlarla birlikdə müzakirələrin və görüşlərin keçirilməsinin təşkili ilə bağlı zəruri tədbirlər görmək;

6.3.9. Nazirliyin əlaqələndiricisi olduğu və digər sahəvi dövlət proqramlarının icra vəziyyəti ilə bağlı mütəmadi olaraq məlumatlar hazırlamaq, zərurət yarandıqda onların icrasının sürətləndirilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər görmək;

6.3.10. Nazirliyin əlaqələndiricisi olduğu və digər sahəvi dövlət proqramlarında Nazirliyə həvalə edilmiş tədbirlərin icra vəziyyətinə dair hesabatları müəyyən olunmuş müddətlərdə və ya sorğu əsasında müvafiq dövlət orqanlarına (qurumlarına) təqdim etmək;

6.3.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.